*UOT 37.01*

***Fəridə Tofiq qızı Xudiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0003-1783-6392*
*E-mail: xfarida09@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(5).58-61*

# TƏLİM PROSESİNDƏ MÜSBƏT MOTİVASİYANIN YARADILMASINDA MÜƏLLİMLƏRİN ƏHƏMİYYƏTLİ ROLU

***Farida Tofig Khudiyeva***
*associate professor at Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy,*

# THE IMPORTANT ROLE OF TEACHERS IN CREATING POSITIVE MOTIVATION IN THE EDUCATIONAL PROCESS

***Фарида Тофик гызы Худиева***
*доцент Азербайджанского Государственного Педагогического Университета*
*доктор философии по педагогике*

# ЗНАЧИМОСТЬ РОЛИ УЧИТЕЛЕЙ В СОЗДАНИИ ПОЛОЖИТЕЛЬНОЙ МОТИВАЦИИ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

**Xülasə**. Mütəxəssislərin bir qismi təlim fəaliyyəti prosesində məktəbli şəxsiyyətinin inkişafının əsas hərəkətverici qüvvəsi kimi ünsiyyəti qeyd edir. Müəllim ünsiyyət üçün lazımı sistemləşdirici şəraiti yarada bilirsə şagirddə sosil motiv yaranır. Sosial motivlər başqalarına faydalı olmaq istəyi ilə bağlıdır. Bu zaman şagird komanda ilə işləmək, əməkdaşlıq, yoldaşları ilə səmimi münasibət qurmaq bacarıqlarını əldə edir. Şagirdin kollektivdə müəyyən status qazanmaq istəyi niyyət motivi ilə bağlıdır. Bilik əldə etmək, öyrənmə fəaliyyətindən zövq almaq koqnitiv motivlərlə bağlıdır. Qrupdakı şagirdlərin münasibətləri davranış və özünütəsdiq ehtiyacları ilə əlaqələndirilir. Bu ehtiyac məktəblinin inkişaf etməsinin göstəricisidir. Burada şagirdin özünüqoruma, özünütəsdiq ehtiyacları da reallaşır. Özünüqoruma fizioloji inkişaf səviyyəsində, özünütəsdiq isə məktəblinin şəxsi inkişafının daha yüksək səviyyəsində üstünlük təşkil edir. Təlim prosesində şagird subyekt kimi çıxış edir. Bu şagirdin cəmiyyətdə öz yerini tutmasına nail olmaq və buna can atma motivi ilə müəyyən olunur. Cəmiyyətdə öz yerini tutma motivi təhsil prosesində təlim fəaliyyətinin əsaslarının formalaşmasına yardım edir.
***Açar sözlər***: *təlim, şəxsiyyət, şagirdlər, inkişaf, cəmiyyət*

**Abstract**. Some experts note communication as the main driving force of the development of the student's personality in the process of educational activity. If the teacher can create the necessary systematizing conditions for communication, a social motive arises in the student. Social motives are associated with the desire to be useful to others. At this time, the student acquires the skills of working in a team, cooperation, and establishing sincere relationships with his friends. The student's desire to gain a certain status in the collective is associated with the motive of intention. Acquiring knowledge and enjoying learning activities are associated with cognitive motives. The relationships of students in the group are associated with behavioral and self-affirmation needs. This need is an indicator of the student's development. Here, the student's needs for self-protection and self-affirmation are also realized. Self-protection prevails at the level of physiological development, and self-affirmation at a higher level of the student's personal development. In the educational process, the student acts as a subject. This is determined by the student's motive of achieving and striving for his place in society. The motive of taking his place in society helps to form the foundations of educational activity in the educational process.
***Keywords***: *learning, identity, students, development, society*

**Аннотация.** Некоторые специалисты называют общение основной движущей силой развития личности учащегося в процессе обучения. Если учитель сумеет создать необходимые систематизирующие условия для общения, у ученика разовьется социальный мотив. Социальные мотивы связаны с желанием быть полезными другим. В это время ученик приобретает навыки работы в команде, сотрудничества, построения искренних отношений с друзьями. Желание ученика достичь определенного статуса в коллективе связано с мотивом намерения. Приобретение знаний и получение удовольствия от учебной деятельности связаны с когнитивными мотивами. Взаимоотношения учащихся в группе связаны с поведенческими потребностями и потребностями самоутверждения. Эта потребность является показателем развития учащегося. Здесь также реализуются потребности ученика в самозащите и самоутверждении. На уровне физиологического развития преобладает самосохранение, а на более высоком уровне личностного развития ученика – самоутверждение. В процессе обучения ученик выступает в роли субъекта. Это определяется мотивацией учащегося достичь и бороться за свое место в обществе. Мотив занятия своего места в обществе способствует формированию основ учебной деятельности в образовательном процессе.

***Ключевые слова:*** *обучение, личность, учащиеся, развитие, общество*

Müasir məktəbli gələcəkdə arzuedilən bir vətəndaş, şəxsiyyət olmaq üçün zəruri biliklərə yiyələnmək və onları həyati problemlərin həlli üçün, praktikada tətbiq etmək bacarıqlarına malik olmalıdır. Təlim fəaliyyəti prosesində idrak ehtiyacı məmnunluq yaratmalı və bilik əldə etmək üçün motivə çevrilməlidir. Öyrənmə və idrak motivləri biliklərin müstəqil öyrənilməsi üsullarının əldə edilməsinə yönəlir. Nəticədə şagird problemlərin həlli üçün zəruri məlumatları axtarır və təhlil edir.

Şagirdin uğur qazanması müəllimin tərifi ilə sərhədlənmir. Nailiyyət ehtiyacı yalnız öyrənmə fəaliyyəti prosesində şəxsi nailiyyətlər olduqda ödənilir. Eyni zamanda, bu prosesdə şagird istənilən qərarı üçün şəxsi məsuliyyət daşımağı öyrənir. Əgər, məktəblinin davranışının əsası onu fəaliyyətə təhrik edən ehtiyacların ödənilməsi ilə bağlıdırsa, onda onun davranışının istiqaməti öz müqəddəratını təyin etmə motivi kimi aparıcı motivlə müəyyən ediləcəkdir [3].

Həyati bacarıqlarda dəyərli münasibət ən vacib amildir, onsuz motivasiya mümkün deyil. Dəyər münasibəti şagirdin zehni hərəkətidir, ona görə də müəyyən meyarlara uyğun olaraq obyektlər arasında seçim edir [1]. Dəyərlər deyərkən mənəvi və maddi ehtiyacları ödəməyə qadir olan mənalı obyektlər, habelə, arzulanan vəziyyəti və ya həyat tərzini özündə əks etdirən başlıca prinsiplər başa düşülür. Dəyərlərsiz təhsilalanların inkişafı, yəni mütərəqqi kəmiyyət və keyfiyyət dəyişiklikləri mümkün deyil.

Öz müqəddəratını təyinetmə təkcə fəaliyyətlərlə deyil, həm də ətrafda olan insanlarla bağlıdır. Buna görə də hər bir şagird onu əhatə edən insanların fəaliyyətinin nəticələrini təhlil etməyi bacarmalıdır.

Cəmiyyətin tərəqqisi fəaliyyət növlərinin dəyişməsinə səbəb olur və buna uyğun olaraq insanların ehtiyacları da dəyişir. Özünüifadə etmək istəyi, ehtiyacı insanda başqalarında yaranan ümumi təəssüratlara nəzarət etmək zərurəti yarandıqda əmələ gəlir. Bu ehtiyacın əsas hərəkətverici qüvvəsi uğursuzluqların aradan qaldırılması motividir. Bu motiv həm müvəffəqiyyətsizliyin olmamasına, həm də uğur qazanmağa təkan verir. Təlimin uğuru minimum qüvvə sərf etməklə yüksək nəticələr əldə etməkdir. Uğurun məramı son nəticə olaraq məqsədlərlə üst-üstə düşməsidir [2].

Şagirdlərin təlimə müsbət münasibətinin formalaşdırılmasında sosial-pedaqoji amillərin rolu problemi ciddi və sistemli şəkildə alimlərimiz H. Əlizadə, Ə. Ağayev, M. İsmixanov, S. Vəliyeva, Y. Rzayeva, T. Hüseynova, T. Vahabova [6;28] və başqaları tərəfindən də tədqiq olunmuş və elmi-praktik əhəmiyyəti olan nəticələr əldə edilmişdir. Bu tədqiqatlarda məktəblilərin öyrənməyə münasibətində demoqrafik amillərin təsiri bir neçə istiqamətdə araşdırılmışdır: məktəblilərin təlimə münasibətinin ailənin tipoloji xüsusiyyətlərindən asılılığı, təlimə münasibətin ailənin peşə-təhsil strukturundan asılılığı; məktəblilərin təlimdə inkişaf səviyyəsinin ailədəki uşaqların sayından asılılığı və s.

Qeyd etdiyimiz kimi təlim motivasiyası araşdırmaçıları təhsil fəaliyyətinin məzmunu ilə bağlı motivlər qrupuna aşağıdakıları daxil edir: koqnitiv motivlər; nailiyyət motivləri; instrumental motivlər; fəaliyyət üçün motivlər.

Öyrənmə fəaliyyətinin məzmunu ilə əlaqəli olmayan motivlərə isə oyun motivləri və "gözlənilən dəyər" motivləri aid edilir.

Müəllim şagirdlərdə həmişə təlimdə uğur qazanacaqlarına inam formalaşdırmalıdır. Təlimdə müvəffəqiyyət qazanma ona görə uğur motivasiyası ilə əlaqələndirilir ki, təlimdə şagirdlərin geri qalmaları aradan qalxsın, özünü qiymətləndirə bilsin, məktəblinin psixoloji dayanıqlığını təmin edə bilsin.

Təlimdə geri qalan, lakin ayrı-ayrı bacarıq və qabiliyyətlərinə yüksək qiymət verən şagirdlər digər bacarıqların inkişaf etdirilməsində müsbət rol oynadığı kimi, təlim fəaliyyətinə də müsbət münasibət formalaşdırır [6].

Motivasiya təlim prosesinin məhsuldarlığına güclü təsir göstərir və təlim fəaliyyətinin uğurlu olmasını təmin edir. Öyrənmə motivlərinin olmaması mənimsəmənin səviyyəsini, şəxsiyyətin deqradasiyasını aşağı salır, nəticədə məktəblilərin qanunları pozmasına qədər aparıb çıxarır.

İbtidai siniflərdə şagirdlərin bir qayda olaraq məktəbə münasibəti müsbət olur. Onlar üçün məktəbdə hər şey yeni və maraqlıdır, şagirdlər müəllimin hamıdan çox bildiyinə inanır və onun verdiyi bütün tapşırıqları sözsüz yerinə yetirməyə çalışırlar. Öyrənmə fəaliyyətinə marağın aşağı düşməsi müəllimlərin diqqətindən yayınmamalıdır. Şagirdlərin məktəbə ümumi müsbət münasibətləri sönür. Hər gün məktəbə gəlmək ilk gündəki kimi maraq kəsb etmir, lakin uşaq getdikcə məktəbə alışır. Öyrənmənin mahiyyətinin dərk edilməsi, öyrənmənin məzmununa olan marağın artması, bilik əldə etmə bacarığı ilə möhkəmlənir. Əgər müəllimlər buna nail ola bilərsə, motivasiyanın aşağı düşməsi baş verməz [8].

Şagirdlərin təlim fəaliyyətinin motivasiya edilməsində müəllim şəxsiyyətinin rolunu da vurğulamaq lazımdır. Öyrənməyə marağın formalaşdırılması problemi bu gün də öz aktuallığını qoruyub saxlayır. Eyni müəllimdən dərs alan şagirdlərin bilik və bacarıq səviyyələri fərqli olur. Təlim prosesində verilən materialı və müəllimin eyni izahını şagirdlərin hamısı eyni cür başa düşüb mənimsəyə bilmir. Pedaqoq və psixoloqların müşahidə və qənaətinə görə, təlim fəaliyyətinin uğurlu nəticəsi bu fəaliyyətin hansı hissləri oyatdığından, yəni motivlərdən asılıdır. Məhz buna görə də motivlər təlim fəaliyyətinin əsas komponenti hesab olunur. Təlimdəki uğurlar çox şeylə əlaqədardır, bu təhsilalanlarda öyrənməyə marağın necə inkişaf etməsindən, öyrənmə istəyindən və bilik əldə etmənin vacibliyinin dərkindən çox asılıdır. Təlim motivasiyasını yüksəltmək üçün onun real səviyyəsini müəyyənləşdirmək və hər bir şagirdin və bütövlükdə sinfin mümkün inkişaf perspektivlərinin dərki ilə əlaqədardır.

Uşağın məktəbə gəlişi ilə əlaqədar onun həyatında başqa hətta valideyndən daha böyük təsirə malik olan müəllimlər böyük yer alır. Bu zaman müəllimin şəxsi və peşə keyfiyyətləri önə çıxır. Müəllimin şəxsi keyfiyyətləri dedikdə bura onun uşaqlara və müəllimliyə olan sevgisi, məktəbliyə olan hörmət və inamı, müəllimin mədəni davranışları, düzgün və aydın nitqi, tələblərindəki təkidliliyi və dayanıqlılığı və s. Ola bilər. Müəllimlərin peşə keyfiyyətlərinə isə tədris etdiyi fənni və onun metodikasını bilməsi, materialları gözəl izah edə bilməsi, pedaqoji ustalığa malik olması, erudisiyası və özünüinkişafı, psixoloji bilik və müşahidəçilik qabiliyyətlərinə malik olması, pedaqoji takta sahib olmaq kimi keyfiyyətlər aid edilir [3].

Hələ vaxtı ilə L.N. Tolstoy yazırdı: *"Əgər müəllim yalnız işini sevərsə, o yaxşı müəllim olacaqdır. Əgər müəllim ata və anası kimi yalnız uşaqları sevirsə, o, əvvəlkindən də yaxşı müəllim olacaqdır, əgər müəllim həm peşəsini, həm də şagirdləri sevirsə, o, müəllim əsil müəllimdir"* [22, s.161]. Müəllim məktəblilərin inkişafını izləyən soyuqqanlı bir mütəxəssis olmamalı, o, şagirdlərin inkişafını müxtəlif yollarla və metodlarla stimullaşdırmalıdır. Məktəblinin şəxsiyyət kimi formalaşdırılmasında təlim motivasiyası böyük təsir gücünə malikdir. Təlim motivasiyası məktəbli fəaliyyətinin xarakterinə, onun təlimə münasibətinə güclü təsir göstərir. Məktəblinin ən yaxşı tərəflərini nümayiş etdirmək, müəllimin bütün tələblərini yerinə yetirmək istəyi əsas təlim motivlərindən hesab olunur və bu şagirdi öyrənmə fəaliyyətində daha aktiv olmağa təhrik edir.

Müəllimin pedaqoji fəaliyyət tərzi özündə aşağıdakıları birləşdirir: müəllimin kommunikativ bacarığı; müəllim və şagird arasında yaranan qarşılıqlı anlaşmanın çətin xarakteri, müəllimin fərdi yaradıcılıq potensialı, onun fərdi xüsusiyyətləri.

Müəllimlik işində pedaqoji ünsiyyət tərzinin olması vacibdir. Bu müxtəlif situasiyalarda peşəkar fəaliyyətdir. Bu prosesdə müəllimin şəxsi keyfiyyətləri və onun şagirdlərlə ünsiyyət

tərzi üzə çıxır. Pedaqoji ünsiyyətin bir neçə tərzini göstərmək olar: Avtoritar, demokratik, qarşılıqlı yaradıcı fəaliyyətə aludəçilik əsasındakı ünsiyyət, məsafəli ünsiyyət, qorxuducu ünsiyyət və s. Məktəblilərin öyrənmə fəaliyyəti motivasiyasının formalaşdırılmasına təsir edən amillərdən biri də müəllimin pedaqoji prosesi, yəni sinfi düzgün təşkil edə bilməsidir.

Təlim motivasiyası prosesində şagirdlərin özünənəzarət və özünüqiymətləndirmə bacarığı formalaşdırılmalıdır. Əsas təlim tapşırığının başa düşülüb qəbulundan sonra qarşıda duran işin planı müzakirə edilir və qeydlər aparılır. Bu, işin perspektivini yaradır. Sonra müəllim mövzunun öyrənilməsi üçün nəyi bilib, nə etmək lazım olduğunu deyir. Bununla materialın öyrənilməsinə hazırlıq mərhələsi başlayır. Müzakirələr hər bir uşağın mövzunu öz imkanları daxilində öyrənilməsini qiymətləndirməsindən sonra yekunlaşır. Uşaqlar hansı materialları təkrarladıqlarını və növbəti mərhələdə dərsə hazırlaşmaq üçün nə etməli olduqlarını qeyd edirlər. İdraki fəaliyyət mərhələsində mövzunun mahiyyəti dərk edilir təlim fəaliyyəti və əməliyyatlar icra olunur. Refleksiya qiymətləndirmə mərhələsi mövzunun öytrənilməsinin son mərhələsidir. Bu mərhələdə məktəblilər fəaliyyətlərini təhlil edib, onu qiymətləndirirlər. Yekun mərhələni elə aparmaq lazımdır ki, uşaqlar yerinə yetirdikləri işin və çətinliklərin öhdəsindən gələ bildikləri üçün sevinc hissini yaşaya bilsinlər. Məsələn, uşaqlara belə bir tapşırıq vermək faydalı ola bilər: keçmiş materialın sxemini çəkin və ya əsas anlayışları ayırın. "Öyrəndiyiniz materialı nə dərəcədə mənimsədiyinizi bilmək üçün mövzu üzrə suallar tərtib edin". Öz işini qiymətləndirmə bacarığı tərbiyə etmək üçün belə bir ev tapşırığı vermək olar: keçilən mövzu ilə bağlı əsas sualları, qabağında isə bu sualları necə başa düşdüyünüzün sxemini tərtib edin. Məsələn, yaxşı, çox yaxşı, əla və ya mənimsəyə bilmədim. Başqa bir vərəqdə mövzunun öyrənilməsi prosesində əldə etməli olduğunuz bacarıqları və onları necə mənimsədiyinizi sadalayın: yaxşı, zəif və ya heç nə əldə etmədim. Bu, özünü qiymətləndirmə və aradakı boşluqların səbəbinin aydınlaşdırılması və onların aradan qaldırılmasına özünü hazırlamaq üçün faydalı adekvat seçimdir. Əsas məsələ ondan ibarət olmalıdır ki, özünənəzarət və qiymətləndirmə məktəblilərdə gələcək fəaliyyətə həvəs oyatsın.

**Problemin aktuallığı.** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, Ən səmərəli ünsiyyət üsulu demokratik ünsiyyət hesab olunur. Bu şagirdlərin öyrənmə fəaliyyəti motivasiyasına ən təsirli tərzdir.

**Problemin elmi yeniliyi.** Bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

**Problemin təcrübi əhəmiyyəti.** Bir çox pedaqoqlar elm sahəsində çalışan elm xadimləri bu mövzu ilə bağlı tədqiqatlarında bu materialdan istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. İsmixanov, M. Sosial pedaqogika (Mühazirə kursu). / M. İsmixanov, Vəliyeva S. – Bakı: ADPU-nəşriyyatı, – 2013. – 304 s.
2. Kazımov, E. Motivasiyanın yaradılmasının şagirdin inkişafına təsiri. // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 84, № 6, – 2017, səh.167-169
3. Kurikulum bələdçisi (izahlar və tətbiqlər). / Ə.M. Abbasov və b. – Bakı: Elm və təhsil, – 2019. – 332 s.
4. Mahmudov, V. Müəllim şagird münasibətləri əməkdaşlıq müstəvisində. //Azərbaycan müəllimi. -2018, 21 sentyabr.
5. Mehrabov, A.O. Ənənəvi və müasir təlim metodları – üstünlüklər və çatışmazlıqlar: müqayisəli təhlil. / A.O. Mehrabov. – Bakı: Mütərcim, – 2010. – 516 s.


**Redaksiyaya daxil olub:** 11.09.2025.